# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 162** **Bakı şəhəri, 15 aprel 2022-ci il**

***"Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyul tarixli 289 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

"Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması mexanizminin təkmilləşdirilməsi və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 158-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 859 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 3 sentyabr tarixli 1439 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyul tarixli 289 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1312; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 5 mart tarixli 70 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. Cəmiyyət ərzaq məhsullarının dövlət sifarişi ilə bağlı alqı-satqı əməliyyatlarının "Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması" elektron portalı (bundan sonra – elektron portal) vasitəsilə aparılmasını, eləcə də bu sahədə fəaliyyətin təşkili üçün digər tədbirlər görülməsini təmin edən kommersiya hüquqi şəxsdir.".

2. 3.1.1-ci yarımbəndə "hesabına" sözündən sonra "elektron portal vasitəsilə" sözləri əlavə edilsin.

3. Aşağıdakı məzmunda 3.1.1-1-ci yarımbənd əlavə edilsin:

"3.1.1-1. elektron portalın operatoru funksiyasını həyata keçirir;".

4. 3.1.2-ci, 3.1.9-cu, 3.1.12-ci, 3.1.17-ci və 3.2.5-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"3.1.2. satın alınması nəzərdə tutulan ərzaq məhsulları, həmin məhsulların qiyməti, növü, miqdarı və satınalma şərtləri (o cümlədən, satınalma dövriliyi) barədə elanı hər il avqustun 1-dək elektron portalda yerləşdirilir;

3.1.9. elektron portalda barəsində məlumat yerləşdirilən istehsalçıların, eləcə də satıcıların fəaliyyətinin monitorinqini "Elektron kənd təsərrüfatı" informasiya sistemi və (və ya) yerində baxış vasitəsilə hər il oktyabrın 1-dək aparır və həmin monitorinqin nəticələrini elektron portala daxil edir;

3.1.12. satınalan təşkilatların müraciəti və (və ya) monitorinqin nəticələri əsasında satınalma və müqavilə şərtlərinə əməl etməyən ərzaq məhsulları istehsalçılarının və ya satıcılarının təkliflərinin 1 (bir) il ərzində elektron portalda yerləşdirilməsini məhdudlaşdırır, eləcə də bu sahədə yaranan münasibətləri tənzimləyən normativ hüquqi aktların tələbləri pozulduğu hallarda tədbirlərin görülməsi barədə aidiyyəti üzrə məlumat verir;

3.1.17. elektron portaldan istifadəyə görə ödənilən vəsaitin məbləğini satınalma dövründə hər bir müqavilə üzrə bir dəfə müəyyən etməklə, elektron portaldan istifadəyə görə satınalan təşkilatlarla ərzaq məhsullarının istehsalçıları və ya satıcıları arasında bağlanılmış müqavilə üzrə satılmış ərzaq məhsullarının dəyərinin 10 faizə qədərini satınalan təşkilatdan alır;

3.2.5. elektron portalda barəsində məlumat yerləşdirilən istehsalçı və satıcıların fəaliyyətinin monitorinqi məqsədilə "Elektron kənd təsərrüfatı" informasiya sistemindən, yerində baxış zamanı isə onlardan zəruri məlumatları əldə etmək;".

5. 3.1.18-ci yarımbənd ləğv edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2022.- 19 aprel.- S.2.